F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Şeir dünyasının sönməyən çırağı

## Osman Sarıvəlli – 120



*(Veblioqrafiya)*

**Tərtib etdi: Məlumat-biblioqrafiya şöbəsi**

**Ağayeva İranə**

**Ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi 88**

**Əlaqə: (+99412) 597-08-79, daxili nömrə: 25**

**info@clb.az**

**ushaqkitabxanasi@gmail.com**

**childlibbaku@yahoo.com**

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025.**

# Giriş

Osman Abdulla oğlu Qurbanov 1905-ci il dekabrın 17-də Qazax rayonunun İkinci Şıxlı (Sarıvəlli) kəndində anadan olmuşdur. Orta təhsilini Qazax Müəllimlər Seminariyasında aldıqdan sonra bir müddət Göyçay rayonunun Qaraməryəm və Bığır kənd məktəblərində müəllim işləmiş, sonra təhsilini artırmaq məqsədilə Moskvaya gedərək Moskva Dövlət Universitetinin filologiya fakültəsində oxumuşdur. Moskvada təhsil aldığı müddətdə bir sıra ziyalılar, ədəbiyyat nümayəndələri ilə tanış olmuşdur. Şair özü qeyd edirdi ki, "Moskvadakı təhsil illəri mənim həyatımda yeni bir mərhələnin başlanğıcı oldu. Orada klassik və müasir rus poeziyası ilə ətraflı tanış oldum. Rus dili vasitəsilə dünya ədəbiyyatının ən maraqlı nümunələrini öyrəndim".

O.Sarıvəlli ədəbi yaradıcılığına 1933-cü ildə başlamışdır. Həmin ildə "Gənc işçi" qəzetində "Ayaqsız" adlı ilk şeiri çap olunmuşdur. Onun "Dəmir sətirlərim" adlı birinci kitabı 1934-cü ildə çapdan çıxmışdır.

Osman Sarıvəlli xalq yaradıcılığının təbliği, aşıq sənətinin tədqiqi ilə yanaşı, tərcüməçiliklə də məşğul olmuş, Nizami, Xəqani, Viktor Hüqo, Nazim Hikmət, Aleksandr Puşkinin əsərlərini, Sofoklun "Antiqona" faciəsini dilimizə çevirmişdir. Folklorumuzun və aşıq yaradıcılığının tədqiqində, eləcə də böyük Səməd Vurğun yaradıcılığının külliyyatının hazırlanıb çap edilməsində öz qüvvəsini əsirgəməmişdir. Onun qoşmaları bu gün də Azərbaycan aşıqlarının ən çox sevdiyi, oxuduğu mahnılara çevrilib.

Osman Sarıvəllinin şair taleyi heç də asan olmamış, ömrünün müxtəlif anlarında haqsızlıqlara, təqiblərə məruz qalmışdır. Belə ki, sovet rejiminin qanlı illəri onun da həyatından yan keçməmişdir. O ağır illərdə Osman Sarıvəllinin qardaşı sürgün olunmuş, özü isə repressiya qorxusu altında yaşamışdır. Ancaq heç bir qorxu onun ilham pərisini əlindən ala bilməmişdir. Yazıçı 1990-cı il iyulun 2-də Bakıda vəfat etmiş və doğulduğu kənddə dəfn edilmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat-biblioqrafiya şöbəsi Osman Sarıvəllinin 120 illiyi münasibətilə yazıçının kitablarının, dövri mətbuatda haqqında olan çap məhsullarının tammətnli biblioqrafik siyahısının yer aldığı veblioqrafiyanı hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## Görkəmli şəxsiyyətlər Osman Sarıvəlli haqqında



“Osman Sarıvəlli millətimizin idrak və qəlb xəzinəsinə dərindən bələd olan işıqlı təfəkkür sahibidir. Onun yaradıcılığında doğma təbiətin gözəlliyini, xalqımızın mübarizəsindən soraq verən bədii fikirlərin, nəcib duyğuların poetik tərənnümünü görürük.”

**Səməd Vurğun**
*Xalq şairi*



“Osman Sarıvəlli bir şair kimi dünyanın yükünü öz çiynində daşıyan sənətkardır.”

**İsmayıl Şıxlı**
*Xalq yazıçısı*



“Osman poeziyasının xəlqiliyi onun ən gözəl məziyyətidir. O, yaradıcılığının bütün kökləri ilə mənası, məzmunu və forması ilə xalqa bağlı olan şairdir.”

**Mirvarid Dilbazi**
*Xalq yazıçısı*



“Osmanın poeziyası optimist poeziyadır. Onun ən gözəl keyfiyyəti xəlqiliyindədir. Osmanın şeirləri bağdan yenicə qoparılmış ətirli bir qızıl gülə bənzəyir. Belə bir gülün ətrindən doymaq mümkün olmadığı kimi, Osmanın şeirlərini də oxumaqdan doymaq olmur.”

**Əhməd Seyidov**
*Professor*



"O.Sarıvəlli bütün varlığı, poeziyası ilə xalq yaradıcılığına bağlıdır. O, elin yaradıcılıq çeşməsindən kor-koranə qidalanmır, əksinə, bu qaynaqlardan, mənalı tərzdə faydalanır, əsərlərində milli ənənələrimizi çox gözəl uyarla yaşadır."

**Süleyman Rüstəm**
*Xalq şairi*



"O.Sarıvəllinin yaradıcılığı xalqımızın taleyi ilə bağlı qüdrətli bir yaradıcılıqdır."

**Həmid Araslı**
*Ədəbiyyatşünas, professor*



"Yaddaşımda bir Osman Sarıvəlli yaşayır: el nəfəsli, torpaq canlı, xalq ətirli, təbiət naxışlı, qartal qıylı, tərlan havalı Osman Sarıvəlli! Yaddaşımda bir Osman Sarıvəlli yaşayır: eldən-obadan, adətdən-ənənədən, sazdan-sözdən, azandan-yaylaqdan, dağdan-binədən söz düşəndə qəlbi kövrələn, ruhu incələn, yanağı 10 allanan, dodaqları titrəyən, yay kimi açılıb-sıxılan Osman Sarıvəlli!"

**Zəlimxan Yaqub**
*Xalq şairi*

# Kitabları



[Bizim babalar, bizim nəvələr : şeirlər və poemalar / O. Sarıvəlli ; red. M. Ələkbərli. - Bakı : Gənclik, 1980. - 84 s. ; 14 sm. - kiril əlifbası ilə.]

Kitabda gedən şeir və poemalarda Vətən məhəbbəti, dostluq, təbiətə vurğunluq, sadə, səmimi bir dillə ifadə olunur.




[İqlimdən iqlimə / O. Sarıvəlli. - Bakı : Azərnəşr, 1963. - 139 s. - kiril əlifbası ilə.]

Bu kitab Osman Sarıvəllinin müxtəlif illərdə yazdığı lirik və vətənpərvər şeirlərindən ibarət seçmə poeziya toplusudur. Kitabda şair insanın mənəvi aləmi, həyatın dəyişən mərhələləri, təbiət və zamanın ritmi, eləcə də vətənə, xalqa məhəbbət kimi mövzuları poetik dildə canlandırır.




[Qüdrətli şair, ustad sənətkar / O. Sarıvəlli ; red. N. İbrahimova ; elmi red. Ş. Ə. Səlimbəyli ; rəy., ön söz B. O. Qurbanov ; rəy. M. Allahmanlı ; tex. red. Ç. Teymurov. - Bakı : Avropa, 2011. - 128 s. : portr., foto ; 21 sm.]

Böyük el sənətkarı Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr olunmuş bu kitabda Aşıq Ələsgərin şeir sənətində tutduğu mövqe, poeziyasının məzmunu, sənətkarlıq xüsusiyyətləri, ustadlıq məktəbi və Azərbaycan aşıq ənənəsinin inkişafında rolu geniş şəkildə təqdim olunur.




[Mən sabaha gedirəm : şeirlər / O. Sarıvəlli. - Bakı : Yazıçı, 1979. - 232, [1] s. : şək. ; 20 sm. - kiril əlifbası ilə.]

Müxtəlif illərdə qələmə alınmış lirik şeirlərdən ibarət poetik topludur. Şeirlərin dili sadə, səmimi və axıcıdır. Müəllif oxucunu həm düşündürür, həm də ruhən yüngülləşdirir.



[Mənimlə dünyanı gəzən mahnılar / O. Sarıvəlli ; red. İ. Tapdıq. - Bakı : Azərnəşr, 1966. - 271 s. : il. ; 14 sm. - kiril əlifbası ilə.]

Müəllifin müxtəlif mövzularda qələmə aldığı lirik və düşüncəyə söykənən şeirlərdən ibarət kitabıdır. Şeirlərin hər biri sanki müəlliflə birlikdə "dünyanı gəzən" bir mahnı kimi oxucunu müxtəlif duyğulara aparır. Axıcı dil, səmimi ifadələr və lirik ovqat kitabı poetik duyum axtaran oxucular üçün maraqlı bir topluya çevrilmişdir.




Seçilmiş əsərləri : 2 cilddə / O. Sarıvəlli. C. 1. : Şeirlər / red. Ə. Cəmil. - Bakı : Azərnəşr, 1958. - 250, [11] s. : port. ; 20 sm. - kiril əlifbası ilə.

Müəllifin yaradıcılıq irsinin ən dəyərli nümunələrini bir araya gətirən topludur. Bu cilddə onun poeziyası, müxtəlif illərdə yazdığı lirik, fəlsəfi, vətənpərvər və düşüncəyə söykənən şeirləri təqdim olunur.




Seçilmiş əsərləri : 3 cilddə / O. Sarıvəlli. C. 2. : Şeirlər. - Bakı : Azərnəşr, 1974. - 252 s. - kiril əlifbası ilə.

Bu cildə daxil edilmiş şeirlər müəllifin bədii düşüncəsini, poetik üslubunu və duyğularının zənginliyini əks etdirir. Toplu oxucuya şairin yaradıcılığının müxtəlif mərhələlərini izləmək, onun şeir dünyasını daha yaxından kəşf etmək imkanı verir.




Seçilmiş əsərləri : poeziya / O. Sarıvəlli ; tərt.ed., red. A. Qurbanov. - Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2004. - 208 s. ; 20 sm.

Müəllifin ən uğurlu, ən dəyərli və oxucu tərəfindən yüksək qiymətləndirilmiş şeirlərini bir araya gətirən poetik toplusudur. Bu kitab həm poeziya sevənlər, həm də müəllifin yaradıcılığını daha dərindən öyrənmək istəyənlər üçün qiymətli bir mənbədir.



Şeirlər / O. Sarıvəlli ; red. S. Vurğun ; rəs. D. Kazımzadə. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1948. - 16 s. : il. ; 17 sm. - kiril əlifbası ilə.

Müəllifin müxtəlif illərdə qələmə aldığı qısa, lakin məzmun baxımından yığcam və təsirli şeirlərdən ibarət mini-poetik toplusudur.

## Əsərləri dövri mətbuatda

Ad və təbiət : şeir. Şair dostum Adil Babayevə // Ədəbiyyat qəzeti. – 2020. – 25 yanvar. – S. 16.

Demişəm : şeir. Əziz dostum Kamala // Ədəbiyyat qəzeti. - 2023. - 12 avqust. - № 29. - S. 5.

Mən sabaha gedirəm ; Uzun ömürlü gün ; Qara torpaq : şeirlər // Sovet kəndi. – 1975. – 18 noyabr. - № 139.

Özünə bəsdir ; Tanınarsan : şeirlər // Ədəbiyyat və incəsənət. – 1975. – 29 noyabr. – S. 8.

Panamalı dilənçi // Ədəbiyyat qəzeti. – 2007. – 27 iyul. - № 29. – S. 1.

## Haqqında dövri mətbuatda

**Axundova, A.** Doğma elə vurğun şair / Arzu Axundova // Ulduz. – 1983. - № 12. – S. 52-54.

**Azəroğlu.** Xalq şairi Osman Sarıvəlli / Azəroğlu. – Ədəbiyyat qəzeti. – 2007. – 27 iyul. - № 29. – S. 1, 2.

**Cavadlı, C.** Mən dayansam, sən dayanma... / Cavad Cavadlı // Azərbaycan müəllimi. – 1977. – 23 fevral.

**Əlizadə, Ə.** Xəlqilik meyarı ilə / Ə.Əlizadə // Ədəbiyyat və incəsənət. – 1987. – 27 fevral.

**Hacıyev, T.** Səlis və obrazlı / Tofiq Hacıyev // Ədəbiyyat və incəsənət. – 1966. – 15 yanvar.

**İsmayıl, M.** Bu, Osmanın nəfəsidir / Məmməd İsmayıl // Ədəbiyyat və incəsənət. – 1976. – 11 sentyabr.

**İsmayılzadə, İ.** İllərin əks-sədası / İsa İsmayılzadə // Ulduz. – 1975. - № 10. – S. 25-28.

**Qarabağlı, Ə.** Yaşamasın bu dünyada gözəlliyi duymayan! / Ə. Qarabağlı // Azərbaycan müəllimi. – 1966. – 20 fevral.

**Qasımov, H.** Qazaxda Osman Sarıvəlli poeziya bayramı / Hamlet Qasımov // Xalq qəzeti. – 2017. – 19 dekabr. – S. 9.

**Mehdixanlı, T.** İlhamını torpaqdan alan şair / Telman Mehdixanlı // Azərbaycan. – 2004. - 15 fevral.

**Mehdixanlı, T.** Torpaqdan, təbiətdən ilham alan söz sərrafı : Osman Sarıvəlli - 100 / Telman Mehdixanlı // Azərbaycan. – 2006. – 17 dekabr.

**Mədətoğlu, Ə.** Günah hər kəsin özündədi : Xalq şairi Osman Sarıvəllinin ruhuna ehtiramla / Əbülfət Mədətoğlu // Ədalət. – 2024. – 11 oktyabr. - № 39. – S. 8.

**Mədətoğlu, Ə.** Günahkaram! - deyə bilsən / Əbülət Mədətoğlu // Ədalət : İctimai-siyasi, hüquq qəzeti. - 2025. - 12 sentyabr. - № 34. - S. 8.

**Məmmədov, Ş.** Xalqa məhəbbətlə yazıb-yaratmış şair : O.Sarıvəlli - 100 / Ş.Məmmədov // Azərbaycan müəllimi. – 2005. – 15 aprel. – S. 7.

**Məmmədov, Z.** Qazaxda xalq şairi Osman Sarıvəlliyə həsr olunmuş poeziya bayramı / Zamin Məmmədov // İki sahil. – 2017. – 19 dekabr. – S. 13.

**Müzəffər, Ş.** Gözəl insan / Şükür Müzəffər // Ədəbiyyat qəzeti. – 1992. – 28 fevral. – № 9. - S. 7.

Osman Sarıvəlli haqqında deyilənlər // Ədəbiyyat və incəsənət. – 1966. – 19 fevral.

Osman Sarıvəllinin 110 illiyi qeyd olunub // Mədəniyyət. – 2015. – 18 dekabr. – S. 11.

**Rüstəm, K.** Uşaqlıq təhtəlşüur hadisəsi kimi : Məhəmmədhüseyn Şəhriyar və Osman Sarıvəlli / Kamal Rüstəm // Ədəbiyyat qəzeti. – 2021. – 5 iyun. – S. 21.

**Rüstəm, S.** Ömrü-şərəfli həyatdır / Süleyman Rüstəm // Bakı. – 1977. – 16 fevral.

**Rüstəm, S.** Uğurlu yollarda : O.Sarıvəllinin anadan olmasının 70 illiyi / Süleyman Rüstəm // Kommunist. – 1975. – 20 noyabr.

Samanı zaman satdırır // Ulduz. – 1989. - № 12. – S. 50-52.

**Şıxlı, İ.** Doğma torpağa bağlı sənətkar / İsmayıl Şıxlı // Kommunist. – 1985. – 10 noyabr.

**Şıxlinski, M.** Şairin öz kəndində dəfni / Mehdi Şıxlinski // Ədəbiyyat və incəsənət. – 1990. – 20 iyul. - № 27. – S. 8.

**Tapdıq, İ.** Bahar ömrün nəğmələri : Osman Sarıvəllinin anadan olmasının 70 illiyi / İlyas Tapdıq // Sovet kəndi. – 1975. – 18 noyabr. - № 139.

**Təhməz, L.** Milli ruhu poeziyada yaşadan söz sənətkarı / Ləman Təhməz // Respublika. - 2024. - 17 dekabr. - № 278. - S. 11.

**Vahid, T.** Yüz ildən sonra yaşayanlar / Təranə Vahid // Mədəniyyət. – 2011. – 16 dekabr. – S. 15.

**Yaqub, Z.** Xatirələr işığında / Zəlimxan Yaqub // 525-ci qəzet. – 2013. – 16 mart. – S. 25.

**Yaqubqızı, R.** Hər kim yüz il yaşamasa... / Ramidə Yaqubqızı // Respublika. – 2022. – 17 dekabr. – S. 11.

**Yaqubqızı, R.** Yüz il yaşaya bilməsə də, yüz illər yaddaşlarda yaşayacaq / Ramidə Yaqubqızı // Respublika. - 2023. - 17 dekabr. - № 276. - S. 7.

**Yusifli, V.** Osman Sarıvəlli – 120 / Vaqif Yusifli // Ədalət. – 2025. – 17 oktyabr. - № 39. – S. 11.

**Yusifli, V.** Osman Sarıvəlli dünyası : "Köhnə kişilər" silsiləsindən / Vaqif Yusifli // Ədəbiyyat qəzeti. - 2019. - 13 iyul. - № 24. - S. 26.

**Yusifzadə, M.** Əziz dostumuz Osman müəllim! / M.Yusifzadə // Azərbaycan. - № 78. – 31 may.